

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 36 (23.448)

22 fevral 2020-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Romadakı Kuirinale Sarayında "2020-ci il - İtaliyada Azərbaycan Mədəniyyət İli"nin açılışı münasibətilə konsert proqramı təqdim olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, İtaliya Respublikasının Prezidenti Sercio Mattarella və qızı Laura Mattarella konsert proqramını dinləyiblər.

Konsertdə Azərbaycan Dövlət Kamera Orkestri görkəmli Azərbaycan və İtaliya bəstəkarlarının əsərlərini ifa edib.

* * *

Fevralın 21-də Romada Azərbaycan-İtaliya biznes forumu keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Roma şəhərinin meri xanım Vircinia Raggi ilə görüşüb.

İtaliya Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 21-də Romada rəsmi yolasalma mərasimi olub.

Romanın Kuirinale Sarayında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycanın və İtaliyanın dövlət himnləri səslənib.

Azərbaycan və İtaliya prezidentləri fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin mükafatının verilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Təhsil və ictimai fəaliyyət sahəsində xüsusi fərqləndiyinə görə Zahid Paşa oğlu Qənbərova Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin mükafatı (beş min manat) verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 21 fevral 2020-ci il*

## "Azərbaycan dili milli varlığımızdır" mövzusunda interaktiv dərs



***21 fevral – Beynəlxalq Ana Dili Günü ilə bağlı ümumtəhsil məktəbləri ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyi arasında "Azərbaycan dili milli varlığımızdır" mövzusunda interaktiv dərs keçilib.***

Dərsdə ana dilimizin zənginliyi, onun yaşadılması və təbliğ edilməsi barədə geniş məlumat verilərək şagirdlərin diqqətinə çatdırılıb ki, bu gün Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır. Ulu öndər ölkəmizə rəhbərliyinin birinci dövründən başlayaraq Azərbaycan dilinin inkişafı istiqamətində məqsədyönlü iş aparmışdır. Görkəmli dövlət xadimi 1978-ci ildə qəbul edilən Azərbaycan SSR Konstitusiyasında, 1995-ci ildə isə ilk milli Konstitusiyamızda ana dilimizin dövlət dili kimi təsbit edilməsinə nail olmuşdur.

Bildirilib ki, hazırda bu siyasəti ölkə Prezidenti cənab İlham Əliyev uğurla davam etdirməkdədir. Dövlət başçısının 2004-cü il 12 yanvar tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", 2012-ci il 23 may tarixli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" sərəncamları və bu istiqamətdə görülən digər işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Qeyd olunub ki, muxtar respublikamızda da dövlət dilimizin qorunub yaşadılmasına xüsusi diqqət yetirilir, dövlət-dil siyasəti uğurla həyata keçirilir, ana dilimizin daha da inkişaf etdirilməsi və zənginləşdirilməsi, təbliğ olunması diqqət mərkəzində saxlanılır.



Naxçıvan şəhər 8 nömrəli tam orta məktəb

Bu istiqamətdə reallaşdırılan tədbirlər ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır. Naxçıvan şəhərində ucaldılmış "Ana dili" abidəsi dilimizə ehtiramın ən böyük ifadəsidir.

Vurğulanıb ki, Ali Məclis Sədrinin müvafiq sərəncamı ilə "Oxunması zəruri olan kitabların Siyahısı"nın təsdiq olunması, bədii sözün daşıyıcısı olan dəyərli ədəbi nümunələrin gənclərə tövsiyə edilməsi onlarda mütaliə mədəniyyətinin formalaşmasına dəstək olmaqla yanaşı, dilimizin təbliğinə verilən qiymətdir. Dilimizin tarixinin öyrənilməsi, onun qorunub inkişaf etdirilməsi çərçivəsində Ali Məclis Sədrinin tapşırığı ilə "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası", "Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri" və digər kitabların nəşri dilimizin qorunub yaşadılması sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsi olmaqla yanaşı, inkişafına da mühüm töhfədir.

İnteraktiv dərs Naxçıvan Muxtar Respublikasının 200-dən çox ümumtəhsil məktəbində izlənilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## 2020-ci ilin yanvar ayında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2020-ci ilin yanvar ayında 173 milyon 71 min 900 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz artaraq 376,4 manat olmuşdur.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 93 milyon 691 min 700 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2020-ci ilin yanvar ayında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 37 milyon 13 min 200 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 34 milyon 102 min 100 manatı və ya 92,1 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2020-ci ilin yanvar ayında 8 milyon 642 min 600 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 2124,6 ton, süd istehsalı 2045,8 ton olmuşdur. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 4,7 faiz, süd istehsalı isə 2 faiz artmışdır.

* * *

2020-ci ilin yanvar ayında informasiya və rabitə xidmətlərinin dəyəri 4 milyon 73 min 800 manat olmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 1,2 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 3 milyon 180 min 600 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 3,7 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2020-ci ilin yanvar ayında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 13 milyon 403 min 800 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 4,2 dəfə çoxdur. Verilmiş kreditlərin 1 milyon 384 min 600 manatı və yaxud 10,3 faizi qısamüddətli, 12 milyon 19 min 200 manatı və yaxud 89,7 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir. 1 fevral 2020-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 85 min 342-yə çatmışdır ki, bunun da 75 min 92-si və ya 88 faizi aktiv hesablardır. 2020-ci ilin yanvar ayında açılmış 2984 bank hesabının 2973-ü aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 fevral 2020-ci il tarixə 1278-ə çatmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2020-ci ilin yanvar ayında 32 milyon 828 min 500 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə artaraq 24 milyon 45 min 800 ABŞ dolları təşkil etmiş, 15 milyon 263 min 100 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

2019-cu ildə muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 484,8 manat təşkil etmişdir ki, bu da 2018-ci illə müqayisədə 12 faiz çoxdur.

* * *

1 yanvar 2020-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3532 nəfər artaraq 459 min 625 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Gənc əməkdaşların andiçmə mərasimi keçirilib



Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yaradılmasının 28-ci ildönümü ərəfəsində Dövlət Bayrağı Muzeyində təşkil olunan tədbirdə "Gömrük andı"nı sınaq müddətini bitirmiş və ilk xüsusi rütbələr verilmiş 22 gömrükçü qəbul edib.

Əməkdaşlar təntənəli surətdə and içiblər. Sonra Azərbaycan Respublikasının Dövlət Himni oxunub.

Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli and içən əməkdaşları təbrik edərək seçdikləri bu şərəfli yolda onlara uğurlar arzulayıb. Bildirilib ki, əsl gömrükçü olmaq üçün bu peşənin sirlərinə dərindən yiyələnməli, xidməti intizama və qanunvericiliyin tələblərinə ciddi əməl edilməli, qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində təşəbbüskarlıq və mütəşəkkillik göstərilməlidir. Nizam-intizam və məsuliyyət olan yerdə uğur da var, – deyən komitə sədri onu da vurğulayıb ki, hər bir gömrükçü milli dövlətçiliyimizə sədaqətlə xidmət etməli, ümummilli liderimiz Heydər Əliyevin ideyaları ətrafında sıx birləşməlidir.

Sonra Dövlət Bayrağı Muzeyi ilə tanışlıq olub. Qeyd edilib ki, muzey dövlət atributlarımızın tarixi və onların gələcək nəsillərə çatdırılması baxımından müstəsna əhəmiyyətə malikdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

İnkişaf edən bölgələrimiz

# Naxçıvanın Şərqə açılan qapısı Culfa
## sosial-iqtisadi inkişafın zirvəsində

***“Mənim ayrıca bir fəaliyyət proqramım olmayacaqdır. Fəaliyyətimi görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edəcəyəm”***, – deyən Ali Məclis Sədrinin fəaliyyət proqramı sayəsində bu gün qədim yurd yerinin hər bir yaşayış məntəqəsi öz inkişafı ilə nümunə gücündədir.



Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***“Naxçıvanda hər bir sahədə uğurlu inkişaf gedir, hər bir sahəyə böyük diqqət göstərilir. Bu, Heydər Əliyev yolunun təntənəsidir”***. Bəli, Naxçıvanda ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi strateji hədəflər, inkişaf və tərəqqi proqramı uğurla həyata keçirilib, muxtar respublika ulu öndərimizin arzuladığı, görmək istədiyi kimi qurulub. Bütün bunlara isə cəmi 25 il ərzində nail olunub.

* * *

Bu illər ərzində 22 kənd və 1 şəhəri əhatə edən Culfa rayonu da, demək olar ki, başdan- başa yenidən qurulub. Bu istiqamətdə rayonun bütün kəndlərində kompleks quruculuq işləri aparılıb, 16 kənd mərkəzi, 13 həkim ambulatoriyası, 9 feldşer-mama məntəqəsi, 14 xidmət mərkəzi istifadəyə verilib. Kəndləri magistrala birləşdirən yollara asfalt örtük verilib, insanların müxtəlif ünvanlara gediş-gəlişi asanlaşıb, həyata keçirilən tədbirlərlə kəndlərimizə şəhər mədəniyyəti gətirilib.



Digər rayon mərkəzlərində olduğu kimi, burada da ümummilli lider Heydər Əliyevin adını daşıyan prospekt Culfa şəhərinin ən gözəl ünvanıdır. Prospekt boyu səliqə-sahman, görülmüş abadlıq işləri göz oxşayır. Məlumat üçün bildirək ki, rayonun əksər idarə, müəssisə və təşkilatları bu ünvanda yerləşir. Həmin təşkilatlarda çalışan işçilər üçün hərtərəfli şərait yaradılıb. Şəhər mərkəzindəki digər küçələrdə də son illərin quruculuq ərməğanları, salınmış rahat yollar, parklar, yaşayış binaları, bazar, ticarət mərkəzi qədim Culfa şəhərinə müasir görkəm bəxş edib.

Bu gün rayonun hər bir sakini iftixar hissi keçirir ki, bütün bu yaradılanlar, qurulanlar, abad guşələr uğurla aparılan quruculuq siyasətinin layiqli töhfələridir. Bu tədbirlər sayəsində 47 mindən çox əhalisi olan Culfa müasir Azərbaycan rayonuna çevrilib. Məqsədyönlü tədbirlər 2019-cu ildə də davam etdirilib. Rayon iqtisadiyyatının bütün sahələrinin dinamik inkişafı tikinti-quraşdırma, abadlıq və yenidənqurma işlərinin artmasına, mövcud yaşayış binalarının və infrastruktur obyektlərinin əsaslı təmirinə şərait yaradıb. Belə ki, 2019-cu ilin yanvar-noyabr aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 39 milyon 876 min 600 manat vəsait yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş vəsaitin həcmi 37 milyon 175 min 600 manat olub.

Bəhs olunan dövrdə Ərəfsə kəndində tarixi körpünün bərpası başa çatdırılıb, Yaycı kəndində yeni ticarət mərkəzi istifadəyə verilib, Bənəniyar və Xanəgah kəndlərində 3 çörək istehsalı, Camaldın kəndində 1 priket istehsalı, Kırna kəndində 1 mebel yığımı, Yaycı kəndində isə dəmir qapı istehsalı sexləri yaradılıb, həmçinin Bənəniyar kəndindəki mövcud polietilen sexində yeni avadanlıqlar quraşdırılaraq sexin istehsal gücü artırılıb.

Rayon mərkəzindəki Heydər Əliyev prospektində əsaslı təmir və yenidənqurma işləri, Culfa şəhərində yanacaqdoldurma məntəqəsi və maye qazdoldurma stansiyasının tikintisi, “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin Yük və Sərnişin Daşımaları İdarəsinin vaqon təmiri sexinin, inzibati binasının tikintisi və yenidən qurulması davam etdirilir. Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin, Rabitə İdarəsinin, Təhsil Şöbəsinin inzibati binalarında tikinti və yenidənqurma işləri aparılıb, Qazançı kəndində yeni məscid binasının tikintisi davam etdirilib. Bundan əlavə, Culfa şəhəri və ətraf kəndlərin içməli su təchizatı, həmçinin kanalizasiya sistemlərinin yenidən qurulması, kəndlərdə kaptajların əsaslı şəkildə təmir olunması, şəhərdəki həcmi 5 min kubmetr olan 2 su anbarının tikintisi, yeni suvarma şəbəkələrinin qurulması, Culfa şəhərinin və Gülüstan kəndinin əhalisinə fasiləsiz, ekoloji cəhətdən təmiz suyun verilməsi rayonda bu sahəyə göstərilən diqqətin təzahürüdür.

Bu tədbirlər mənzil-kommunal təsərrüfatı sektorunda da həyata keçirilib. Belə ki, xidmətlərin yaxşılaşdırılması, istismarda olan binaların cari və əsaslı təmiri üzrə görülən işlər nəticəsində Culfa şəhərinin Məmməd Əsgərov küçəsində yeni mərkəzləşdirilmiş qazanxana binasının tikintisi, 42 nömrəli yaşayış binasının əsaslı təmiri və həyətinin abadlaşdırılması davam etdirilib. Mehdi Hüseynzadə küçəsindəki 28 nömrəli 36 mənzilli yaşayış binasının əsaslı təmiri və həyətinin abadlaşdırılması, Heydər Əliyev prospektindəki Şəhidlər xiyabanının yenidən qurulması başa çatdırılıb.

İçməli su xətlərinin istismar vəziyyətinin yaxşılaşdırılması üçün tədbirlər görülüb, kəndlərdəki içməli su xətlərinin, ümumilikdə, 7600 metrində təmir-bərpa işləri aparılıb, su kaptajlarının 720 metrində təmir və lildən təmizləmə işləri həyata keçirilib. 19 evə yeni içməli su xətti çəkilib, həmçinin 11 ədəd istifadəyə yararsız hala düşmüş su sayğacı yenisi ilə əvəzləşdirilib.

Bu dövrdə meliorasiya işləri də diqqət mərkəzində saxlanılıb. Nasos stansiyalarındakı 4 nasos, 2 nasos aqreqatı əsaslı təmir edilib, 1968 metr suvarma su şəbəkəsi quraşdırılıb, 7275 metr suvarma xəttində təmir işləri aparılıb, 200 metr drenaj qazılıb. Bu dövrdə Yaycı “Daşarx” kanalının 800 metrlik hissəsinin istiqamətinin dəyişdirilməsi işləri başa çatdırılıb.

* * *

Culfa kənd təsərrüfatı rayonudur. Tarixən burada əhali müxtəlif təsərrüfat sahələri ilə məşğul olub. Əhalisinin 70 faizdən çoxu kəndlərdə yaşayan Culfa rayonunda da aqrar bölmənin inkişafı mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılıb, daxili bazarın keyfiyyətli yerli kənd təsərrüfatı məhsulları ilə təmin olunmasına əlverişli şərait yaradılıb. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib, əhalinin məşğulluğu təmin olunub, maddi rifah halı daha da yaxşılaşıb. Bəhs olunan dövrdə təsərrüfatın müxtəlif sahələri ilə məşğul olan insanlara güzəştli kreditlərin verilməsi torpaq mülkiyyətçilərini daha da ruhlandırıb. Məhsul istehsalçılarına güzəştli şərtlərlə 959 min 850 manat dəyərində 1465 ton mineral gübrə, əkinçiliyin və heyvandarlığın inkişafı üçün 52 min manat kredit verilib.

Azərbaycan Respublikası Prezidentinin “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” 2007-ci il 13 yanvar tarixli Sərəncamına uyğun olaraq 2019-cu ildə əkinçilik sahəsi üzrə 1326 nəfər istehsalçıya yanacaq və motor yağlarına görə 571 min 90 manat dövlət yardımı verilib, 50 faizi güzəştli şərtlərlə olmaqla, 959 min 850 manat dəyərində 1465 ton mineral gübrə satılıb. Bütün bunlar rayonda kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafında əsaslı rol oynayıb. 2019-cu ilin məhsulu üçün 2018-ci ilin payızında və 2019-cu ilin yazında 8053 hektar sahədə əkin aparılıb.





2019-cu ildə 7066 hektar dənli və dənli-paxlalı bitkilərin əkin sahələrindən 15 min 712 tonu buğda, 3281 tonu arpa, 1650 tonu dənli-paxlalılar olmaqla, 20 min 643 ton məhsul yığılıb, 3045 ton kartof, 41 ton qarğıdalı, 38 ton günəbaxan tədarük edilib.

Rayonun taxılçıları ötən ilin payızında 2020-ci ilin məhsulu üçün 6213 hektarı buğda, 1246 hektarı isə arpa olmaqla, ümumilikdə, 7467 hektar sahədə payızlıq səpin aparıblar.

Təbii-coğrafi şəraiti Culfada meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üçün də geniş imkanlar yaradır. Bu sahənin inkişafı ilə bağlı 2016-cı il fevralın 8-də qəbul olunmuş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın icrası nəticəsində 2019-cu ildə rayonda 364 hektar sahədə tərəvəz, 130 hektarda bostan bitkilərinin əkini həyata keçirilib, yeni meyvə və üzüm bağları salınıb, Kırna və Gülüstan kəndlərində tingçilik təsərrüfatları yaradılıb.

Görülən tədbirlər məhsul istehsalının artması ilə nəticələnib. 2019-cu ildə rayonda 4680 ton tərəvəz, eləcə də 1890 ton bostan məhsulları, həmçinin barverən bağlardan 3254 ton meyvə, 6234 ton üzüm tədarük edilib. Onu da xüsusi qeyd edək ki, muxtar respublikanın digər bölgələrində olduğu kimi, Culfa rayonunda da ailə təsərrüfatlarının yaradılması və onların fəaliyyətinə qayğı göstərilməsi diqqət mərkəzindədir.

Ötən il də ekoloji tarazlığın qorunması məsələlərinə rayonda ciddi önəm verilib, yaşıllıq zolaqlarının bərpası və artırılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilib. Belə ki, 14,7 hektar sahədə yeni yaşıllıqlar salınıb, 8,3 hektar mövcud yaşıllıq sahəsində meşəbərpa işləri aparılıb. Bu dövrdə 12 min 415 meyvə, 1560 meşə, 1979 həmişəyaşıl ağac və 1015 ədəd gül kolu əkilib.

* * *

Bu gün muxtar respublikamızda təhsilin inkişaf etdirilməsi, müasirləşdirilməsi yeni mərhələyə qədəm qoyub. Ən ucqar kəndlərdə belə, təhsil müəssisələri üçün yeni binalar tikilir, onların maddi-texniki bazası gücləndirilir. Culfa rayonunda da təhsilə göstərilən dövlət qayğısı sayəsində indiyədək 26 tam orta məktəbdən 24-ü yenidən tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Müasir tələblərə cavab verən təhsil ocaqlarının yaradılması, onların yeni avadanlıqlarla təmin edilməsi gənc nəslin hərtərəfli biliyə, yüksək mədəniyyətə, mütərəqqi dünyagörüşə malik yetişməsinə şərait yaradır. Culfa rayonunda bu istiqamətdə də uğurlu nəticələr qazanılıb. Təkcə ötən tədris ilində 279 nəfər ali məktəblərə sənəd verib, onlardan 177-si, yaxud 63,4 faizi tələbə adını qazanıb.

Muxtar respublikanın digər bölgələrində olduğu kimi, Culfa rayonunda da səhiyyənin inkişafı, eləcə də əhalinin sağlamlığı naminə ardıcıl olaraq məqsədyönlü tədbirlər həyata keçirilir. Ucqar dağ kəndlərində istifadəyə verilən feldşer-mama məntəqələri, həkim ambulatoriyaları, sosial layihələr çərçivəsində görülən işlər göstərilən qayğının ən bariz nümunələridir.

Rayonun bütün yaşayış məntəqələrində yaradılmış şəraitin, tarixi-mədəni irsin qorunması istiqamətində həyata keçirilən tədbirlərin nəticəsidir ki, Culfa turistlərin ən çox üz tutduğu ünvanlardan birinə çevrilib. Xanəgah Abidə Kompleksi, Gülüstan türbəsi, Qazançı körpüsü, Daş körpü, Əlincəqala kimi tarixi-mədəni abidələrimiz də diqqət və qayğıdan kənarda qalmayıb. Onlara yeni həyat verilib, yenidən elmi əsaslarla bərpa olunaraq xalqımıza qaytarılıb. Tarix yenidən yazılıb... Bəli, bu gün zirvəsində məğrur-məğrur dalğalanan üçrəngli Azərbaycan bayrağı ilə Əlincəqala hər bir azərbaycanlının qürur mənbəyinə çevrilib.

***Rayonda həyata keçirilən quruculuq və iqtisadi siyasət davamlı inkişafa, firavan həyata gətirib çıxarıb. Bütün bu misilsiz nailiyyətlər Heydər Əliyev siyasi kursunun muxtar respublikamızda yüksək səviyyədə, ardıcıl və dönmədən davam etdirilməsi nəticəsində qazanılıb. Bu gün hər bir culfalı müstəqil və inkişaf etmiş bir rayonda yaşadığı üçün məsrur Naxçıvanın QURUCU Rəhbərinə sonsuz minnətdarlığını bildirir.***

**Alim AĞAYEV**
***“Arazın səsi” qəzetinin redaktoru***

## İcma rəhbərlərinə və din xadimlərinə geyimlər təqdim edilib

*Naxçıvan şəhərindəki “Sarvanlar” məscidində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə dini icma rəhbərlərinə və din xadimlərinə pulsuz geyimlər verilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev bildirib ki, din xadimlərinə dövlət vəsaiti hesabına hər il geyimlərin verilməsi muxtar respublikada dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsinin, dövlətin dinə və dindarlara göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.





Qeyd olunub ki, dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi, eləcə də icmaların fəaliyyətinə ciddi nəzarətin təşkil olunması məqsədilə hər ay Naxçıvan şəhərindəki “Sarvanlar” məscidində 17 icma rəhbərinin iştirakı ilə iclaslar təşkil olunur.

Naxçıvan Muxtar Respublikası qazısı yanında şuranın sədri, Naxçıvan Muxtar Respublikası qazısı Sahib Məmmədov din xadimlərinə göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib. Şura sədri qeyd edib ki, muxtar respublikada 212 məscid, 26 pir mövcuddur. Bütün bu dini yerlər hərtərəfli qayğı ilə əhatə olunur. Dini və yas mərasimlərində din xadimlərinin geyim formasında olmasına və həmin tədbirlərin yüksək səviyyədə aparılmasına ciddi nəzarət edilir.

**Xəbərlər şöbəsi**

***"Vətən, Vətən, Vətən; dil, dil, dil; millət, millət, millət!.. Dəxi bu dairələrdən kənar bəni-növibəşər üçün nicat yolu yoxdur!"***

*Görkəmli demokrat ədib, tanınmış yazıçı-publisist Cəlil Məmmədquluzadə (1869-1932) bütün şüurlu həyatı və yaradıcılığı boyu sadiq qaldığı bu müqəddəs məramı ilə milli ziyalılıq mücəssəməsinə çevrilmiş, əbədiyaşarlıq zirvəsinə yüksəlmişdir. O, milli-mənəvi xəzinəmizdə mütərəqqi ideyalar carçısı, ictimai fikrin bayraqdarı, bədii ədəbiyyatımızda və publisistikamızda Azərbaycançılıq ideologiyasının yaradıcılarından biri kimi yaşayır.*

# Ədəbiyyat və mətbuatımızın sönməz istiqlal günəşi



"Kiçik hekayənin böyük ustadı", tənqidi-realist nəsrin banisi olan məşhur ədibin adının ədəbiyyat tariximizdə əbədiləşməsi üçün təkcə onun sadə mətləblərlə dərin mənalar ifadə edən, bu gün də bədii nəsrimizin şedevr nümunələrindən sayılan hekayələri belə, yetərli idi. XX əsrin əvvəllərindən bədii yaradıcılıqla ardıcıl məşğul olan böyük yazıçının "Poçt qutusu", "Usta Zeynal", "Dəllək", "İranda hürriyyət", "Fatma xala", "Qurbanəli bəy", "Quzu", "Nigarançılıq", "Konsulun arvadı" və sair hekayələri sadə və rəvan təhkiyə dili, Azərbaycan danışıq üslubu, ibrətamizliyi, ən əsası isə büllur kimi saf və tükənməz söz çeşməmiz – xalq folklorundan qaynaqlandığı üçün bu gün də sevilə-sevilə oxunur. Onun "Rus qızı", "Taxıl həkimi", "Hamballar", "Oğru inək" kimi sovet dövründə qələmə aldığı hekayələrində cəmiyyətin əyintiləri və eybəcərlikləri diqqətə çatdırılmışdır.

Ustad Mirzə Cəlil Azərbaycan dramaturgiyası tarixində tragikomediya mərhələsinin də yaradıcısıdır. Onun ilk dram əsəri, ilk alleqorik və mənzum pyesi "Çay dəsgahı"dır. Ədibin kinayəli gülüşdən acı göz yaşlarına aparan dramaturgiyası komediya və faciə janrlarının üzvi vəhdəti ilə seçilir. Azərbaycan tragikomediyasının zirvəsi sayılan məşhur "Ölülər" əsəri, bütövlükdə, türk-müsəlman dünyasının cəhalət və mövhumatına qarşı ən kəsərli silahdır. Onun "Anamın kitabı" məşhur dramına isə görkəmli mirzəcəlilşünas, akademik İsa Həbibbəyli "Azərbaycançılığın ədəbi manifesti", "Azərbaycana aid olmayan fərqli düşüncələrə malik üç qardaşın komediyası, Ananın faciəsi, Gülbaharın dramı" elmi-bədii dəyərini vermişdir. "Kişmiş oyunu" və "Kamança" kimi pyesləri öz ideyasına görə bu gün də aktuallığını, ədəbi-bədii dəyərini qorumaqdadır. Mirzə Cəlilin sovet hakimiyyəti illərində yazdığı "Dəli yığıncağı" pyesində, həmin dövrə məxsus, akademik İsa Həbibbəyli tərəfindən tapılıb elmi-ədəbi ictimaiyyətə təqdim edilən "Ər" pyesində, "Lal", "Lənət", "Oyunbazlar" səhnəciklərində sovet cəmiyyətinin eybəcərlikləri, cəhalət və nadanlıq tənqid olunur.

Ustad Mirzə Cəlilin adı mətbuat tariximizə, xüsusilə qızıl hərflərlə həkk olunmuşdur. XX əsrin əvvəllərində milli mətbuatımızın və naşirlik sənətinin yeni inkişaf mərhələsinə qədəm qoyması məhz onun adı ilə bağlıdır. Gözəl dramaturq, ustad hekayənəvis olmasaydı belə, onun mollanəsrəddinçi publisistikası xəlqilik, bəşərilik kimi ümdə dəyərləri ilə söz xəzinəmizin nadir incilərindən birini təşkil edir.

Cəlil Məmmədquluzadə ilk olaraq Məhəmməd ağa Şahtaxtlının yanında, "Şərqi-Rus" qəzetindəki əməkdaşlıq və müvəqqəti redaktorluq fəaliyyəti ilə zəngin qəzetçilik və naşirlik məktəbi keçmiş, Şərq istibdadı və cəhalətinin qənimi olan ilk satirik jurnal – "Molla Nəsrəddin"in nəşri ilə satirik publisistikanın təməlini qoymuş, ədəbiyyat və mətbuat tariximizdə böyük bir ədəbi dövr, ədəbi məktəb yaratmışdır.

İlk nömrəsi Cəlil Məmmədquluzadənin redaktorluğu ilə 20 aprel 1906-cı ildə Tiflisdə nəşr olunan jurnalın "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!" manifest-proqramı yatmış Şərqi məhvərindən oynatmaq qüdrətinə malik, maarif və tərəqqi, bəşəri dəyərlər əxz etməyə bir çağırış idi. Jurnal 25 il ərzində Qafqaz xalqlarının, bütövlükdə, Şərq dünyasının, Azərbaycanın milli oyanış və dirçəlişində mühüm rol oynamışdır. "Molla Nəsrəddin" jurnalı Azərbaycan tənqidi realizm ədəbiyyatının, satirik publisistikasının ideya-sənət məbədidir. Təsadüfi deyil ki, akademik İsa Həbibbəyli mübariz ideyalarına və qətiyyətli mövqeyinə görə "Molla Nəsrəddin" jurnalını "Azərbaycan xalqının istiqlal kitabı", mollanəsrəddinçi yazıçı və şairlərin "əsərlərinin çoxcildlik külliyyatı" adlandırmışdır. "Molla Nəsrəddin", eyni zamanda satirik publisistika məktəbidir. İdeya-bədii istiqamətvericiliyi ilə mollanəsrəddinçilərin ağsaqqal qələm yoldaşı olan ustad Mirzə Cəlilin jurnaldakı çoxsaylı məqalə və felyetonları hər zaman öz aktuallığını qoruyan, cəmiyyətdəki eybəcərlikləri, nöqsanları ifşa edən satirik-publisistika nümunələridir. O, 1906-1910-cu illərdə jurnalda dərc olunan şeirləri ilə həm də mollanəsrəddinçi satirik poeziyanın da əsasını qoymuş, karikaturalı jurnal nəşri, bu rəsm əsərlərinin, bilavasitə, ideya təşəbbüskarı olması ilə Azərbaycan təsviri sənətini də yeni bir janrla zənginləşdirmişdir.

Ədibin publisistik fəaliyyətini səciyyələndirən əsas istiqamətlərdən biri də onun yeni türk əlifbası ilə çıxan ilk türk qəzeti, Yeni Türk Əlifba Komitəsinin orqanı olan "Yeni yol" (1922-1939) qəzetindəki fəaliyyətidir. Qəzetin 20 iyun 1923-cü il tarixli sayına qədər ilk baş redaktoru kimi fəaliyyət göstərən ədib sonralar – 1 may 1924-cü ilədək də bu mətbu orqanın fəaliyyətində əvəzsiz xidmətlər göstərmişdir.

Cəlil Məmmədquluzadənin publisistikası yüksək bədiilik, səciyyəvi və tipik obrazlar qalereyası, hədsiz tələbkarlıq və böyük ideallar uğrunda məqsədyönlü mübarizə ilə fərqlənir. Sadə, anlaşıqlı danışıq dili, fikir sərrastlığı, toxunulan problemlərin kəskinliyi və konkretliyi dahi ədibin yaradıcılığının əsas məziyyətlərindəndir. Təsirli ifadə vasitələri, təhkiyədəki dəqiqlik və inandırıcılıq, təsvirlərin yığcamlığı və təsir gücü, xarakterlərin dolğunluğu, zəngin həyat müşahidəçiliyi, mövzular aləminin genişliyi, sənətkarlıq boyalarının əlvanlığı, dil orijinallığı və üslub çoxcəhətliliyi Mirzə Cəlil publisistikasının başlıca məziyyətləridir. *"Dünyada hər bir kəs üçün sözdən böyük yadigar yoxdur. Zira ki, mal-mülk tələf olub gedir, amma söz qalır",* – deyən söz sərrafı, görkəmli qələm ustası bütün yaradıcılığı boyu sözə zinət və kəsər verməsi ilə ədəbi yaddaşlarda yaşayır.

Bütün məşəqqətlərə, mənəvi iztirablara, məhrumiyyətlərə rəğmən qələmi ilə xalqının xoşbəxtliyi uğrunda çarpışmaqdan usanmayan, Azərbaycançılıq idealının carçısı olan görkəmli dramaturq, yazıçı-publisistin zəngin, şərəfli həyat və yaradıcılıq yolu bu gün hər bir qələm sahibi, ümumilikdə, ziyalılıq üçün əsl örnəkdir. Onun gerçəkləşən milli istiqlal arzuları, mütərəqqi ideyaları müstəqil dövlətimizin inkişafı yolunda bu gün də bizimlə yanaşı addımlayır.

Əsərləri dəfələrlə nəşr olunmuş, səhnələşdirilmiş, tanınmış ədəbiyyatşünaslarımız tərəfindən müxtəlif aspektlərdən tədqiq olunmuşdur. Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti İsa Həbibbəyli isə Cəlil Məmmədquluzadə irsinin və şəxsiyyətinin öyrənilməsində ədəbiyyatşünaslıqda müasir mirzəcəlilşünaslıq məktəbinin təməlini qoymaq kimi mühüm bir tarixi missiyanı həyata keçirmişdir.

Görkəmli yazıçı və publisistin hərtərəfli elmi-tədqiqi və dünyəvi təbliğində onun ədəbi irsinə göstərilən dövlət qayğısı da müstəsna rol oynamışdır. Təsadüfi deyil ki, bu gün də öz əməlləri və işıqlı ideyaları ilə müasirimiz olan görkəmli yazıçının adı respublikamızda əbədiləşdirilmiş, Bakıda, Naxçıvan şəhərində, Cəlilabad rayonunda heykəlləri ucaldılmışdır. Onun anadan olmasının 100 illiyi beynəlxalq səviyyədə, 125, 140, 150 illik yubileyləri isə ölkə miqyasında geniş şəkildə qeyd olunmuşdur. Bu gün Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyi, Naxçıvan Dövlət Musiqili Dram Teatrı görkəmli ədibin adını daşımaqla yanaşı, həm də onun parlaq ideyalarının layiqli tərənnümçüləri, təbliğatçılarıdır. Böyük yazıçının Bakıda və Naxçıvan şəhərlərində ev-muzeyləri, Cəlilkənddə və Nehrəmdə Xatirə muzeyləri fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı il 23 yanvar tarixdə imzaladığı "Molla Nəsrəddin" jurnalının 100 illik yubileyi haqqında" Sərəncama əsasən jurnalın ilk nömrəsinin işıq üzü görməsinin 100 illiyi dövlət səviyyəsində qeyd olunmuşdur. Dövlət başçısının 2004-cü il 12 yanvar tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı ilə Cəlil Məmmədquluzadənin də bədii-publisistik əsərləri latın qrafikalı Azərbaycan əlifbası ilə yenidən kütləvi şəkildə nəşr olunub oxucuların ixtiyarına verilmişdir. "Molla Nəsrəddin" jurnalının faksimilesi latın qrafikalı Azərbaycan əlifbası ilə yeni tərtibatda, nəfis şəkildə çap edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Oxunması zəruri olan kitabların Siyahısı"nda ədibin "Hekayələr"inin yer alması da Mirzə Cəlil yaradıcılığının gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın formalaşdırılmasında nə qədər mühüm əhəmiyyət kəsb etdiyini bir daha təsdiqləyir.

Prezident İlham Əliyevin "Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında" 2019-cu il 17 yanvar tarixli Sərəncamına əsasən ölkəmizdə silsilə tədbirlər keçirilmiş, "Cəlil Məmmədquluzadə 150 il – məqalələr, esselər, müsahibələr, şeirlər" və digər nəşrlər işıq üzü görmüşdür. Tanınmış akademik, mirzəcəlilşünas İsa Həbibbəylinin ideya müəllifi olduğu "Cəlil Məmmədquluzadənin əsərləri xarici dillərdə" layihəsi üzrə görkəmli yazıçının əsərləri dünyanın bir çox dillərinə tərcümə edilərək nəşr olunmuşdur. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı –TÜRKSOY, AMEA Nizami adına Ədəbiyyat İnstitutu və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə reallaşan, Cəlil Məmmədquluzadənin anadan olmasının 150 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans isə həm də ədibin nəticəsi Martin Cavanşiri və kötücəsi Przemislav Cavanşirinin də ulu babalarının Vətəninə gəlmələri, həmin konfransda iştirak etmələri ilə tarixə düşmüşdür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təsdiq etdiyi "Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı"na əsasən qədim diyarımızda da bu yubiley silsilə tədbirlərlə qeyd olunmuşdur. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı Azərbaycanın Qarsdakı Baş Konsulluğunun təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 101-ci ildönümü münasibətilə qardaş Türkiyədə ədibin "Ölülər", "Anamın kitabı", "Dəli yığıncağı" və "Ər" pyesləri əsasında səhnələşdirilən "Ölülər və dəlilər" tamaşasını uğurla nümayiş etdirmişdir.

*Bədii-publisistik irsi, ictimai-pedaqoji fəaliyyəti ilə tükənməz mənəvi xəzinə olan Cəlil Məmmədquluzadə öz işıqlı ideyaları, xalqına və Vətəninə tükənməz məhəbbəti ilə həmişəyaşardır. Ümummilli liderimiz Heydər Əliyevin Mirzə Cəlil şəxsiyyətinə və irsinə yüksək qiymət verərək dediyi kimi:* ***"Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda o, bizim müasirimizdir, o, bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər Azərbaycanın müstəqilliyinə sevinir və bizimlə bərabər Azərbaycan Respublikasının daim müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə, qoyduğu mənəvi irslə çalışmaqdadır. Əsrimizin əvvəlində fəaliyyətə başlayan Cəlil Məmmədquluzadə bu gün, əsrimizin sonunda bizim üçün mənəviyyat mənbəyidir, mənəvi dayaqdır".***

**Mehriban SULTAN**
***filologiya üzrə fəlsəfə doktoru***

# Türkiyəli professor Naxçıvanda pedaqoji fəaliyyət göstərəcək



Türkiyənin İstanbul Universitetinin professoru Haluk Tanrıverdi "Naxçıvan" Universitetində 3 aylıq pedaqoji fəaliyyətə başlayıb. Dünən universitetin kitabxanasında bununla bağlı keçirilən tədbiri giriş sözü ilə ali təhsil ocağının prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu açaraq bildirib ki, Türkiyənin İstanbul Universiteti ilə "Naxçıvan" Universiteti arasındakı mövcud əməkdaşlığa uyğun olaraq həmin ali təhsil ocağının professoru Haluk Tanrıverdi burada 3 aylıq pedaqoji fəaliyyətə başlayıb. O, turizm sahəsi üzrə bir neçə fənnin tədrisini həyata keçirəcək. Haluk Tanrıverdi həm özünün müəllifi olduğu, həm də digər yazarların qələmə aldığı turizm və iqtisadiyyat sahələrini əhatə edən 60-dan artıq kitabı universitetə hədiyyə edib.

Tədbirdə tarix üzrə fəlsəfə doktoru Mehman Şabanov və "Naxçıvan" Universitetinin dosenti Əli Cabbarov çıxış edərək muxtar respublikamızın turizm potensialının tanıdılması istiqamətində görülən işlərdən söhbət açıb, bu sahədəki kadr hazırlığından və həyata keçirilən layihələrin əhəmiyyətindən danışıblar.

İstanbul Universitetinin professoru Haluk Tanrıverdi çıxışında "Naxçıvan" Universitetində turizm sahəsi üzrə kadr hazırlığının vəziyyətini yüksək qiymətləndirib, ali təhsil ocağında yaradılan əlverişli şərait nəticəsində 3 aylıq pedaqoji fəaliyyətin səmərə verəcəyinə əminliyini vurğulayıb.

Tədbirdən sonra professor Haluk Tanrıverdi "Şərq qapısı" qəzetinə müsahibə verib: – Mənim burada üç aylıq pedaqoji fəaliyyətə başlamağımın səbəbi iki universitetin dostluğunun və yaxınlığının nəticəsidir. Bildirim ki, bu mənim Naxçıvana üçüncü gəlişimdir, 2018-ci ilin iyun ayında Naxçıvan şəhərində keçirilən III Beynəlxalq Gənclik Araşdırmaları Konqresinə də qatılmışdım. Bu qədim türk torpağında incəsənət, turizm, təhsil və digər sahələrin vəziyyəti və perspektivləri barədə müzakirələr aparmışdıq. Budəfəki səfərim isə turizmin bir sıra istiqamətləri üzrə tədris fəaliyyəti göstərməyimə vəsilə olacaq. Belə ki, üç ay ərzində universitetdə turizmdə nəqliyyat xidmətləri, mehmanxana fəaliyyəti texnologiyaları, turizm resursları üzrə sahib olduğum bilgiləri tələbələrə aşılamağa çalışacağam.



Onu da deyim ki, daha öncə də həmkarlarımla Naxçıvana könüllü gəldik, burada müəyyən sahələr üzrə elmi araşdırmalar apardıq. Gördüyümüz işlər nəticəsində Naxçıvanın turizm potensialı, mədəni mirası, təhlükəsizliyi, naxçıvanlı gənclərin turizmə yanaşma tərzləri və digər sahələr üzrə 11 elmi məqalə çap etdirdik. Apardığımız tədqiqat işlərindən gəldiyim nəticə budur ki, Naxçıvan özündə türk mədəniyyətini yaşadan, qədim tarixə, zəngin milli irsə malik bir diyardır. Bu yurdun maraqlı coğrafi ərazidə yerləşməsi cəlbediciliyinin əsas göstəriciləridir. Naxçıvanda zəngin flora və fauna ehtiyatlarının, əlverişli hava şəraitinin mövcudluğu burada yay, qış, eləcə də ekoloji və kənd turizm növlərinin inkişafına geniş imkanlar açır. Türk-İslam memarlıq abidələrini özündə yaşadan muxtar respublikanın hər bir bölgəsinin özünəməxsus tarixi, milli-mənəvi dəyərləri, adət-ənənələri, eləcə də məişət mədəniyyəti nümunələri sayılan hamamları, çeşmələri, bulaqları, məscidləri mövcuddur. Eyni zamanda şəhər turizminin inkişafına xidmət edən teatrlar, kitabxanalar, istirahət məkanları da vardır. Bildiyimiz kimi, müasir dünyada gedən proseslər sağlamlıq turizminin də inkişafını şərtləndirir. Naxçıvanda Duzdağ Fizioterapiya Mərkəzi, Darıdağ Arsenli Su Müalicəxanası və digər təbii səhiyyə ocaqlarının fəaliyyət göstərməsi bu sahədə də turist cəlbinə imkanlar yaradır. Müasir dövrün insanlarının sakit, rahat, əmin-amanlıq olan yerlərə səyahət etmək, orada yaşamaq arzuları vardır. Məhz bu baxımdan da Naxçıvan olduqca cəlbedicidir. Fikrimcə, muxtar respublika bir turistin görmək istədiyi hər bir özəlliyə malikdir.

**Nail ƏSGƏROV**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 17 mart 2020-ci il tarixdə açıq hərraca çıxarılacaq nəqliyyat vasitələri haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq Nəqliyyat vasitələri | Hüquqi ünvan | Nəqliyyatın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 10 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | 1993-cü il buraxılışlı VAZ 21063 markalı minik avtomobili | Naxçıvan şəhəri | 2 500 | 250 |
| 2. | 2010-cu il buraxılışlı Kia Cadenza markalı minik avtomobili | Naxçıvan şəhəri | 20 000 | 2000 |
| 3. | 2009-cu il buraxılışlı Hyundai H1 markalı mikroavtobus | Naxçıvan şəhəri | 17 000 | 1700 |
| 4. | 2010-cu il buraxılışlı VAZ 21074 markalı minik avtomobili | Naxçıvan şəhəri | 5 000 | 500 |
| 5. | 2011-ci il buraxılışlı Lexus LX570 markalı minik avtomobili | Naxçıvan şəhəri | 58 000 | 5800 |
| 6. | 2010-cu il buraxılışlı Mercedes Benz E250 markalı minik avtomobili | Naxçıvan şəhəri | 35 000 | 3500 |
| 7. | 2014-cü il buraxılışlı Kia Cerato markalı minik avtomobili | Naxçıvan şəhəri | 16 000 | 1600 |
| 8. | 2000-ci il buraxılışlı QAZ 33021 markalı yük avtomobili | Bakı şəhəri | 3 000 | 300 |
| 9. | 2011-ci il il buraxılışlı Mercedes Benz C300 markalı minik avtomobili | Bakı şəhəri | 22 000 | 2200 |
| 10. | 2004-cü il buraxılışlı Peugeot 307 markalı minik avtomobili | Bakı şəhəri | 5 000 | 500 |
| 11. | 2014-cü il buraxılışlı HYUNDAI ELANTRA markalı minik avtomobili | Bakı şəhəri | 18 000 | 1800 |
| 12. | 2019-cu il buraxılışlı Kia Rio markalı minik avtomobili | Bakı şəhəri | 23 000 | 2300 |
| 13. | 2009-cu il buraxılışlı Toyota Land-Cruiser markalı minik avtomobili | Bakı şəhəri | 40 000 | 4000 |
| 14. | 2018-ci il buraxılışlı Kia Cerato markalı minik avtomobili | Naxçıvan şəhəri | 20 000 | 2000 |
| 15. | 2011-ci il buraxılışlı Kia Cerato markalı minik avtomobili | Naxçıvan şəhəri | 14 000 | 1400 |
| 16. | 2011-ci il buraxılışlı VAZ 21214 markalı minik avtomobili | Naxçıvan şəhəri | 6 000 | 600 |
| 17. | 2008-ci il buraxılışlı HOWO markalı özüboşaldan avtomobil | Naxçıvan şəhəri | 28 000 | 2800 |
| 18. | 2011-ci il buraxılışlı KAMAZ 65201 60 kc 65713-1 markalı avtokran | Naxçıvan şəhəri | 48 000 | 4800 |
| 19. | 2012-ci il buraxılışlı Mercedes 3340 K markalı özüboşaldan avtomobil | Naxçıvan şəhəri | 60 000 | 6000 |
| 20. | 2007-ci il buraxılışlı Mercedes-Benz VİTO 109 CDİ markalı minik avtomobili | Naxçıvan şəhəri | 22 000 | 2200 |
| 21. | 2010-cu il buraxılışlı HYUNDAI markalı sərnişin avtobusu | Naxçıvan şəhəri | 17 000 | 1700 |
| 22. | 2012-ci il buraxılışlı D-30 Model 3300mm markalı yükləyici | Naxçıvan şəhəri | 9 000 | 900 |
| 23. | 2012-ci il buraxılışlı D-30 Model 4500mm markalı yükləyici | Naxçıvan şəhəri | 10 000 | 1000 |
| 24. | 2012-ci il buraxılışlı Ford Cargo 1835 markalı dartıcı | Naxçıvan şəhəri | 45 000 | 4500 |
| 25. | 2012-ci il buraxılışlı Öxsan y/q sementdaşıyan çən markalı yarımqoşqu | Naxçıvan şəhəri | 10 000 | 1000 |
| 26. | 2004-cü il buraxılışlı MAN markalı özüboşaldan | Naxçıvan şəhəri | 14 000 | 1400 |
| 27. | 2004-cü il buraxılışlı MAN markalı özüboşaldan | Naxçıvan şəhəri | 14 000 | 1400 |
| 28. | 2005-ci il buraxılışlı Mercedes-Benz markalı betonqarışdıran mikser | Naxçıvan şəhəri | 18 000 | 1800 |
| 29. | 2005-ci il buraxılışlı Mercedes-Benz 3028 B markalı beton-qarışdıran mikser | Naxçıvan şəhəri | 18 000 | 1800 |
| 30. | 2005-ci il buraxılışlı Mercedes-Benz 3028 B markalı beton-qarışdıran mikser | Naxçıvan şəhəri | 18 000 | 1800 |
| 31. | 2004-cü il buraxılışlı Mercedes-Benz 3028 B markalı beton-qarışdıran mikser | Naxçıvan şəhəri | 17 000 | 1700 |
| 32. | 2005-ci il buraxılışlı Mercedes-Benz 930.16 markalı betonvuran pompa | Naxçıvan şəhəri | 18 000 | 1800 |
| 33. | 2005-ci il buraxılışlı Mercedes-Benz ACTROS 4141 markalı betonqarışdıran mikser 40 ayaq | Naxçıvan şəhəri | 45 000 | 4500 |
| 34. | 2005-ci il buraxılışlı Mercedes-Benz ACTROS 4141 markalı betonqarışdıran mikser 40 ayaq | Naxçıvan şəhəri | 45 000 | 4500 |
| 35. | 2005-ci il buraxılışlı Mercedes-Benz ACTROS 4141 markalı betonqarışdıran mikser 40 ayaq | Naxçıvan şəhəri | 45 000 | 4500 |
| 36. | 2008-ci il buraxılışlı Mercedes-Benz D4141 markalı betonqarışdıran mikser 40 ayaq | Naxçıvan şəhəri | 36 000 | 3600 |
| 37. | 2007-ci il buraxılışlı HOWO ZZ 1257 N 3641x/t markalı beton-qarışdıran mikser | Naxçıvan şəhəri | 27 000 | 2700 |
| 38. | 2007-ci il buraxılışlı HOWO ZZ 1257 N 3641 336 HP x/t markalı betonqarışdıran mikser | Naxçıvan şəhəri | 27 000 | 2700 |
| 39. | 2011-ci il buraxılışlı HITACHI markalı ekskavator | Naxçıvan şəhəri | 70 000 | 7000 |
| 40. | 2011-ci il buraxılışlı HITACHI ZX 220 markalı kəpcə | Naxçıvan şəhəri | 75 000 | 7500 |
| 41. | 1989-cu il buraxılışlı PAZ-672M markalı sərnişin avtobusu | Naxçıvan şəhəri | 2 000 | 200 |
| 42. | 2013-cü il buraxılışlı Hyundai County markalı sərnişin avtobusu | Naxçıvan şəhəri | 18 000 | 1800 |
| 43. | 2003-cü il buraxılışlı Hyundai Accent markalı minik avtomobili | Naxçıvan şəhəri | 5 000 | 500 |
| 44. | 2011-ci il buraxılışlı Hyundai HD-72 markalı yük avtomobili | Naxçıvan şəhəri | 20 000 | 2000 |
| 45. | 2010-cu il buraxılışlı Mercedes Atego markalı yük avtomobili | Naxçıvan şəhəri | 25 000 | 2500 |
| 46. | Pri lift FB -50 4.8 m markalı yükləyici | Naxçıvan şəhəri | 20 000 | 2000 |
| 47 | 2008-ci il buraxılışlı KAMAZ 43253-1011-02 markalı kran manipulyator | Naxçıvan şəhəri | 24 000 | 2400 |
| 48. | 2007-ci il buraxılışlı FORD TRANZIT FHC 6 markalı yük avtomobili | Naxçıvan şəhəri | 5 000 | 500 |
| 49. | 2013-cü il buraxılışlı Hyundai HD-72 markalı yük avtomobili | Naxçıvan şəhəri | 10 000 | 1000 |
| 50. | 2009-cu il buraxılışlı HYUNDAI ELANTRA markalı minik avtomobili | Naxçıvan şəhəri | 7 000 | 700 |
| 51. | 2011-ci il buraxılışlı Caterpillar 262 C markalı təkərli yükləyici | Naxçıvan şəhəri | 22 500 | 2250 |
| 52. | 2011-ci il buraxılışlı Caterpillar 262 C markalı təkərli yükləyici | Naxçıvan şəhəri | 20 500 | 2050 |
| 53. | 2011-ci il buraxılışlı Caterpillar 432 E markalı ekskavator | Naxçıvan şəhəri | 41 500 | 4150 |
| 54. | 2008-ci il buraxılışlı Hidromek 102 S markalı ekskavator | Naxçıvan şəhəri | 30 700 | 3070 |
| 55. | 2013-cü il buraxılışlı Hidromek 62 SS markalı mini yükləyici | Naxçıvan şəhəri | 23 000 | 2300 |
| 56. | 2013-cü il buraxılışlı Hidromek 62 SS markalı mini yükləyici | Naxçıvan şəhəri | 30 000 | 3000 |
| 57. | 2012-ci il buraxılışlı HITACHI ZX240-5G markalı ekskavator | Naxçıvan şəhəri | 27 200 | 2720 |
| 58. | 2008-ci il buraxılışlı HITACHI ZX240-3G markalı ekskavator | Naxçıvan şəhəri | 25 200 | 2520 |
| 59. | 2010-cu il buraxılışlı HITACHI ZX-250 markalı ekskavator | Naxçıvan şəhəri | 35 300 | 3530 |
| 60. | 2013-cü il buraxılışlı Wacker Neuson 75 Z3 markalı tırtıllı ekskvator | Naxçıvan şəhəri | 83 000 | 8300 |
| 61. | 2013-cü il buraxılışlı Kramer Allrad 1150 markalı yükləyici | Naxçıvan şəhəri | 37 500 | 3750 |
| 62. | 2013-cü il buraxılışlı Kramer Allrad 2506 markalı yükləyici | Naxçıvan şəhəri | 26 400 | 2640 |
| 63. | 2013-cü il buraxılışlı Kramer Allrad 650 markalı yükləyici | Naxçıvan şəhəri | 27 000 | 2700 |
| 64. | 2007-ci il buraxılışlı Qreyder QS-14-02 markalı qreyder | Naxçıvan şəhəri | 12 000 | 1200 |
| 65. | 2011-ci il buraxılışlı Vaz NIVA markalı minik avtomobili | Naxçıvan şəhəri | 7 500 | 750 |
| 66. | 2010-cu il buraxılışlı Vaz NIVA markalı minik avtomobili | Naxçıvan şəhəri | 7 000 | 700 |
| 67. | 2009-cu il buraxılışlı Vaz NIVA markalı minik avtomobili | Naxçıvan şəhəri | 6 500 | 650 |
| 68. | 2009-cu il buraxılışlı Vaz NIVA xetcberq markalı minik avtomobili | Naxçıvan şəhəri | 6 500 | 650 |
| 69. | 2010-cu il buraxılışlı Hyundai ACCENT markalı minik avtomobili | Naxçıvan şəhəri | 10 500 | 1050 |
| 70. | 2010-cu il buraxılışlı Hyundai ACCENT markalı minik avtomobili | Naxçıvan şəhəri | 10 500 | 1050 |
| 71. | 2009-cu il buraxılışlı Hyundai ACCENT markalı minik avtomobili | Naxçıvan şəhəri | 10 000 | 1000 |
| 72. | 2009-cu il buraxılışlı Hyundai ACCENT markalı minik avtomobili | Naxçıvan şəhəri | 10 000 | 1000 |
| 73. | 2011-ci il buraxılışlı Mitsubishi L200 markalı minik avtomobili | Naxçıvan şəhəri | 25 000 | 2500 |
| 74. | 2009-cu il buraxılışlı Hyundai SANTAFE markalı minik avtomobili | Naxçıvan şəhəri | 16 500 | 1650 |
| 75. | 2011-ci il buraxılışlı Opel combo markalı minik avtomobili | Naxçıvan şəhəri | 11 000 | 1100 |
| 76. | 2008-ci il buraxılışlı Opel combo markalı minik avtomobili | Naxçıvan şəhəri | 7 300 | 730 |
| 77. | 2009-cu il buraxılışlı Opel combo markalı minik avtomobili | Naxçıvan şəhəri | 9 000 | 900 |
| 78. | 2007-ci il buraxılışlı SCHMİTS S01 markalı tentli yarımqoşqu | Naxçıvan şəhəri | 25 000 | 2500 |
| 79. | 2010-cu il buraxılışlı Hyundai HD 72 markalı yük avtomobili | Naxçıvan şəhəri | 18 000 | 1800 |
| 80. | 2011-ci il buraxılışlı Hyundai HD 72 markalı yük avtomobili | Naxçıvan şəhəri | 20 000 | 2000 |
| 81. | 2011-ci il buraxılışlı Hyundai HD 72 markalı yük avtomobili | Naxçıvan şəhəri | 20 000 | 2000 |
| 82. | 2013-cü il buraxılışlı Hyundai HD 72 markalı yük avtomobili | Naxçıvan şəhəri | 21 000 | 2100 |
| 83. | 2011-ci il buraxılışlı Hyundai HD 72 markalı yük avtomobili | Naxçıvan şəhəri | 20 000 | 2000 |
| 84. | 2010-cu il buraxılışlı Ford transit markalı yük avtomobili | Naxçıvan şəhəri | 15 000 | 1500 |
| 85. | 2013-cü il buraxılışlı HİDROMEK 140W markalı ekskavator | Naxçıvan şəhəri | 43 000 | 4300 |
| 86. | 2011-ci il buraxılışlı Caterpillar 336D markalı ekskavator | Naxçıvan şəhəri | 47 000 | 4700 |
| 87. | 2007-ci il buraxılışlı Ford transit markalı sərnişin avtomobili 8+1 | Naxçıvan şəhəri | 17 000 | 1700 |
| 88. | 2007-ci il buraxılışlı Nissan primastar markalı vaqon | Naxçıvan şəhəri | 13 000 | 1300 |
| 89. | 2008-ci il buraxılışlı Foton forland markalı yük avtomobili | Naxçıvan şəhəri | 13 000 | 1300 |
| 90. | 2008-ci il buraxılışlı Foton forland markalı özüboşaldan | Naxçıvan şəhəri | 13 000 | 1300 |
| 91. | 1986-cı il buraxılışlı Qaz 53 1201 xüsusi markalı sisterna | Naxçıvan şəhəri | 2 000 | 200 |
| 92. | 1990-cı il buraxılışlı Qaz 52 01 markalı sisterna | Naxçıvan şəhəri | 2 000 | 200 |
| 93. | 2003-cü il buraxılışlı Zil 5301 markalı sisterna | Naxçıvan şəhəri | 3 500 | 350 |
| 94. | 2007-ci il buraxılışlı Hovo ZZ 1257 markalı betonqarışdıran mikser | Naxçıvan şəhəri | 27 000 | 2700 |
| 95. | 2008-ci il buraxılışlı Mercedes-Benz 4141 markalı yük avtomobili 40 ayaq | Naxçıvan şəhəri | 35 000 | 3500 |
| 96. | 2011-ci il buraxılışlı HITACHI ZX240-3G markalı ekskavator | Naxçıvan şəhəri | 70 000 | 7000 |
| 97. | 2006-cı il buraxılışlı Man özüboşaldan | Naxçıvan şəhəri | 15 000 | 1500 |
| 98. | 2014-cü il buraxılışlı Mercedes-Benz 3340 k markalı özüboşaldan | Naxçıvan şəhəri | 25 000 | 2500 |
| 99. | 1978-ci il buraxılışlı MAZ 500 markalı sisterna | Naxçıvan şəhəri | 3 500 | 350 |
| 100. | 1989-cu il buraxılışlı KAMAZ 5410 markalı yük avtomobili | Naxçıvan şəhəri | 7 000 | 700 |
| 101. | 1986-cı il buraxılışlı KAMAZ 5410 markalı dartıcı | Naxçıvan şəhəri | 6 000 | 600 |
| 102. | 1989-cu il buraxılışlı Arbeitsgem VW markalı yük avtomobili | Naxçıvan şəhəri | 13 000 | 1300 |
| 103. | 2011-ci il buraxılışlı DAEWOO SKY 450 S markalı qalıdırıcı qurğu | Naxçıvan şəhəri | 30 000 | 3000 |
| 104. | 2011-ci il buraxılışlı OZSAN OZL markalı yarımqoşqu | Naxçıvan şəhəri | 2 500 | 250 |
| 105. | 2011-ci il buraxılışlı LP G2 BORO markalı yarımqoşqu | Naxçıvan şəhəri | 2 500 | 250 |
| 106. | 1990-cı il buraxılışlı VCPP 9370 markalı yarımqoşqu | Naxçıvan şəhəri | 2 500 | 250 |
| 107. | 1983-cü il buraxılışlı CMZAP 5523A markalı qoşqu | Naxçıvan şəhəri | 3 000 | 300 |
| 108. | 2011-ci il buraxılışlı Caterpillar 336 D markalı ekskavator | Naxçıvan şəhəri | 70 000 | 7000 |
| 109. | 2013-cü il buraxılışlı Hidromek HMK 200 markalı ekskavator | Naxçıvan şəhəri | 60 000 | 6000 |
| 110. | 2009-cu il buraxılışlı PDP 90 markalı qoşqu | Naxçıvan şəhəri | 2 500 | 250 |
| 111. | 2011-ci il buraxılışlı PDP 35 markalı qoşqu | Naxçıvan şəhəri | 3 000 | 300 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan nəqliyyat vasitələrinin ilkin satış qiymətinin 10 faiz məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki Auksion Mərkəzinin Xüsusi Vəsaitlər Hesabına 13 mart 2020-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ 21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;
- ödəniləcək behin qəbzi;
- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;
- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.

Hərrac 17 mart 2020-ci il tarixdə saat 11$^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

**Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.**
**Əlaqə telefonu: 545-01-38**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 17 mart 2020-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq əmlaklar | Əmlakın hüquqi ünvanı | Torpağın sahəsi (ha) | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faizi həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | Əmlak kompleksi, anbarlar reklam bölməsi, alikopand, plastik qapı-pəncərə, mis üzərində döymə emalatxanaları, yarı tikililər, ayna istehsalı və şüşə işləmə xətləri, poliuretan istehsalı, ofis və penoplast lövhələr istehsalı, profil istehsalı zavodu | Naxçıvan şəhəri, C.Məmmədquluzadə küçəsi | 1,6182 | 2.170.000 | 1 08500 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5 faiz məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki Auksion Mərkəzinin Xüsusi Vəsaitlər Hesabına 13 mart 2020-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;
- ödəniləcək behin qəbzi;
- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;
- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.

Hərrac 17 mart 2020-ci il tarixdə saat 11$^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

**Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.**
**Əlaqə telefonu: 545-01-38**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 185